# GÖYƏRÇİN

3
2023
İSSN-0207-4710



RAFİQ YUSİFOĞLU

## SEHRLİ ADDAMACLAR

Qışdan yaza keçmək üçün
Gərək hava bir az qıza.
Ana torpaq məhəbbətlə
Gəl-gəl deyə Bahar qıza.

Qışın qarşısını kəsən
Çəmənlər yaz hasarıdı...
Qorxumuz yoxdu soyuqdan,
Üzümüz yaza sarıdı...

Önümüzü kəsə bilməz
Çovgunlu dağ, qarlı yamac...
Yaza gedən yol üstündə
Hər çərşəmbə bir addamac...





## YARPAQ QARDAŞLAR, ÇİÇƏK BACILAR

Elə ki, əsər
Bahar küləyi,
Qaranquşların
Əsər ürəyi...

Bütün dərdlərə
Yaz əlac olar.
Sevinib gülən
Yal-yamac olar.

Qızıl lalələr
Bənzəyər közə,
Tumurcuq gözlər
Qəfil açılar. -

Durar üz-üzə,
Durar göz-gözə
Yarpaq qardaşlar,
Çiçək bacılar...



## QIŞ UZUNU YATAN QIŞ

Bu nə vaxtın qarıdı? -
Biz əcəb işə düşdük...
Gecikən qış tələsən
Bahar ilə görüşdü...

Axı nəyə gərəkdi
Yaz gələndə yağan qar?
Çiçəyi şaxta vursa,
Budaqlar verərmi bar?

Çiçəkləyən ağaclar
Tir-tir əsir qorxudan...
Qış uzunu yatan qış
İndi durub yuxudan...

## TƏMİZLİK

Orda xəstəlik olur,
Harda ki, pintilik var.
Təmizlik olan yerə
Üzükməz azar-bezar...

## DƏLİ KÜLƏK VƏ AĞILLI İŞIQ

Bəsdi, dağıtdın, qırdın
Dəli külək, gəl bəri!
Gücünü sınayırsan? -
Hərlət, fırlat pərləri...

Ram etməyi bacarsaq,
Dəli-dolu sel gücü,
Dəli-dolu yel gücü,
Dönüb olar el gücü...

Hava kimi gərəksən,
Sən böyüyə, uşağa.
Əs, əs, dəli küləyim,
Dön ağıllı işığa...



## GÜZGÜ

Nə yaxşı ki, güzgü var,
Tanıyıram özümü.
Onsuz görə bilməzdi
Bu gözüm o gözümü...



## AYILAR

Yekəpər ayılar da
Qorxarmış buzdan, qardan...
Xorultu səsi gəlir
Qışda mağaralardan...

Yemək də yada düşmür,
Şirindir qış yuxusu...
Yağı, piyi olanın
Aclıqdan nə qorxusu?

Qış uzunu mürgüyə
Gedən bütün ayılar,
Hava isinən kimi
Yuxusundan ayılar...

Uzun sürən aclığa,
Dözə bilməzlər daha,
Ayılıb bal yuxudan
Gedərlər bal tapmağa...